DOI https://doi.org/10.36719/2707-9317/119/89-96

# The position of the middle class in the Azerbaijani economy and directions for its strengthening

**Jeyhun Mammadli**
Ministry of Science and Education Republic of Azerbaijan
Institute of Economics, doctoral student
E-mail: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Abstract:** This article examines the role of the middle class in socio-economic development, international approaches and the experience of Azerbaijan. The importance of income distribution, consumption opportunities, education and social mobility in the formation of the middle class is highlighted. The advantages of various models are compared based on the examples of the USA, Scandinavian countries and China, and Azerbaijan's position among upper-middle-income countries as a result of economic growth, oil revenues and public investments is examined. The article also evaluates social welfare policies, increasing the minimum wage and pensions, and expanding targeted social assistance programs as key factors in strengthening the middle class. Consequently, the protection and development of the middle class is of strategic importance for the sustainable socio-economic development of Azerbaijan.

**Keywords:** Middle class, social welfare, income distribution, economic development

**UDC 316.334.2, 330.34, 364.2**
**JEL I31, O15, P36**

# Azərbaycan iqtisadiyyatında orta sinfin mövqeyi və möhkəmlənməsi istiqamətləri

**Ceyhun Məmmədli**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu, doktorant
E-mail: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Xülasə:** Bu məqalədə orta təbəqənin sosial-iqtisadi inkişafda rolu, beynəlxalq yanaşmalar və Azərbaycanın təcrübəsi tədqiq olunmuşdur. Orta təbəqənin formalaşmasında gəlir bölgüsü, istehlak imkanları, təhsil və sosial mobilliyin əhəmiyyəti diqqətə çatdırılmışdır. ABŞ, Skandinaviya ölkələri və Çin nümunələri əsasında müxtəlif modellərin üstünlükləri müqayisə edilmiş, Azərbaycanın iqtisadi artım, neft gəlirləri və dövlət investisiyaları nəticəsində yuxarı orta gəlirli ölkələr sırasında mövqeyindən araşdırılmışdır. Məqalədə həmçinin sosial rifah siyasətləri, minimum əməkhaqqı və pensiyaların artırılması, ünvanlı sosial yardım proqramlarının genişləndirilməsi orta təbəqənin möhkəmlənməsində əsas amillər kimi dəyərləndirilmişdir. Nəticə etibarilə, Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişafı üçün orta təbəqənin qorunması və inkişaf etdirilməsi strateji əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Orta təbəqə, sosial rifah, gəlir bölgüsü, iqtisadi inkişaf

**UDC 316.334.2, 330.34, 364.2**
**JEL I31, O15, P36**

## Giriş

Orta təbəqə cəmiyyətin sosial-iqtisadi strukturunda əsaslı yerə sahibdir və həm iqtisadi inkişafın davamlılığını, həm də sosial sabitliyi təmin edən əsas amillərdən biridir. Müasir iqtisadi nəzəriyyələrdə orta təbəqə, xüsusən, gəlir bölgüsündə aşağı və yuxarı siniflər arasında yerləşən, müəyyən istehlak imkanlarına, sabit məşğulluğa və sosial statusa malik olan əhali qrupu kimi qəbul edilir. Orta təbəqənin formalaşması yalnız gəlir göstəriciləri ilə deyil, həm də istehlak imkanları, təhsil səviyyəsi və sosial nüfuzla sıx şəkildə əlaqəlidir. Bu təbəqə iqtisadi artımın davamlılığında həlledici rola sahibdir. Orta gəlir qrupları sabit istehlak davranışı nümayiş etdirərək daxili bazarın genişlənməsinə yardımçı olur. Paralel olaraq, orta təbəqənin mövcudluğu sosial gərginliyin azalmasına, cəmiyyət daxilində nisbi sabitliyin qorunmasına köməklik edir. Kifayət qədər güclənmiş orta təbəqə həm də cəmiyyət dəyərlərinin möhkəmlənməsində, vətəndaş iştirakının artmasında və ictimai institutların sabitliyində mühüm amil hesab olunur.

## Əsas mətn

Beynəlxalq praktikada orta təbəqənin müəyyənləşdirilməsi üçün fərqli metodlara müraciət olunur. Ən çox tətbiq edilən yanaşma əhalinin gəlir bölgüsünə əsaslanır. Bu yanaşmaya əsasən, orta gəlirin müəyyən faiz aralığına uyğun gəlir əldə edən ailələr, orta təbəqəyə şamil olunur. Məsələn, *"İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrində orta təbəqə, adətən, milli medianın 75–200 faizi aralığında gəlir götürən ailələrdən ibarətdir"* [26] (OECD, 2019, s. 13). Bu yanaşma həm primitivliyi, həm də beynəlxalq müqayisələrə imkan yaratması baxımından geniş istifadə olunmaqdadır.

Digər metodoloji yanaşmalarda isə yalnız gəlir göstəricilərinə istinad edilməyərək, həm də istehlak və həyat səviyyəsi məlumatlarına müraciət olunur. Bu yanaşma daha çox əhalinin orta gəliri deyil, ümumi ölkənin iqtisadi tərəfdən gücünü nümayiş etdirir ki, bu da ölkə iqtisadiyyatının dünyada

[26] OECD (2019). Under Pressure: The Squeezed Middle Class. səh 13 https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2019/05/under-pressure-the-squeezed-middle-class_f3fa7167/689afed1-en.pdf

olan mövqeyini müəyyən təyin etməkdə yardımçı olur. Dünya Bankı hər il ölkələri adambaşına düşən milli gəlir (GNI per capita) göstəricisinə görə dörd qrupa ayırır. *"2026-cı maliyyə ili üçün aşağı gəlirli ölkələr 2024-cü ildə Dünya Bankının Atlas metodu ilə hesablanmış adambaşına ÜDM-i 1135 ABŞ dolları və ya daha az olan ölkələr kimi müəyyən edilir; aşağı orta gəlirli ölkələr adambaşına düşən ÜDM-i 1,136 və 4,495 dollar arasında olanlardır; yuxarı orta gəlirli ölkələr adambaşına düşən ÜDM-i 4,496 və 13,935 dollar arasında olanlardır; yüksək gəlirli ölkələr isə adambaşına düşən ÜDM-i 13,935 dollardan çox olan ölkələrdir"* [27] (World Bank, 2025).




**Qrafik 1. Azərbaycanda (1992-2024-cü illər üzrə) adambaşına düşən milli gəlir. Mənbə: Dünya Bankı (2025)** [28]

Azərbaycanda orta təbəqənin formalaşması ölkənin iqtisadi inkişafı ilə sıx şəkildə əlaqəlidir. 2000-ci illərdə neft gəlirlərinin dinamik artımı, iri infrastruktur layihələrinin həyata keçirilməsi və dövlət investisiyalarının böyük miqyasda genişlənməsi əhalinin demək olar bütün təbəqələrinin gəlir səviyyəsini yüksəltmiş, onların istehlak imkanlarını artırmışdır. İstinad etdiyimiz Dünya Bankının 2025-ci il üzrə hesabatına əsasən, Azərbaycan yuxarı orta gəlirli ölkələr siyasındadır və elə 2024-cü il üzrə məcmuədə Azərbaycanın adambaşına düşən milli gəlir dəyəri 7310 ABŞ dolları kimi müəyyən edilmişdir (Qrafik 1). Yuxarıdakı qrafikdə ölkəmizin bu göstərici üzrə xüsusən 2005-ci ildən etibarən çox güclü artımda irəliləməsini müşaiət edə bilərik.

Maliyyə baxımından isə orta təbəqə yığım və investisiya mənbəyi rolunu oynamaqdadır. Bu qrupun üzvləri bank depozitləri, sığorta sistemləri və pensiya fondlarına yatırımlar etməklə kapitalın iqtisadiyyata yönəlməsində iştirak edirlər. Bununla yanaşı, onların ödədikləri vergilər dövlət büdcəsinin sabit gəlir bazasını təmin edir və maliyyə dayanıqlılığını möhkəmləndirir. *"Orta təbəqənin sabitliyi onların əmanətlərinin və aktivlərinin olub-olmamasından asılıdır. Maddi müdafiəsi olmayan vətəndaşlar iqtisadi böhran zamanı yoxsulluğa düçar olmaq riski ilə üzləşdiyindən orta təbəqənin real nümayəndəsi ola bilməzlər"* [29] (Appazov & Adambekova, 2025, s. 115) . Beləliklə, orta təbəqənin yığım və maliyyə sabitliyi həm onun özünün sosial-iqtisadi təhlükəsizliyini, həm də makroiqtisadi sabitliyi qoruyan mühüm amil rolunu oynamaqdadır. Başqa sözlə, güclü yığım imkanlarına sahib olmayan orta təbəqə iqtisadiyyatın risklərə qarşı dayanıqlığını zəiflədir və böhranların təsirini daha da dərinləşdirmə potensialına malikdir.

---

[27] World Bank (2025). Country and Lending Groups https://datahelpdesk.worldbank.org/knowledgebase/articles/906519-world-bank-country-and-lending-groups

[28] https://data.worldbank.org/indicator/NY.GNP.PCAP.CD?locations=AZ

[29] Appazov, A. A., & Adambekova, A. A. (2025). Socio-Economic Aspects of Middle Class Identification: Criteria and Challenges. L.N. Gumilyov Eurasian National University Bulletin. Economics Series, 2, səh 115. https://bulecon.enu.kz/index.php/main/article/view/1215

Orta təbəqənin ümumiyyətlə mahiyyətini anlamaq və ölkə iqtisadiyyatında payını təyin etmək üçün dünya ölkələri və regionları üzrə təsnifatına nəzər yetirmək zəruridir.

**Amerika Birləşmiş Ştatları**

ABŞ-da orta təbəqə anlayışı daha çox **gəlir intervalına** əsasən təyin edilir. Ən çox istifadə olunan yanaşmaya görə, ailənin illik gəliri median gəlirin 2/3 hissəsindən 2 qatına qədər olduqda, həmin ailə orta təbəqədən hesab edilir. Lakin bu, yalnız gəlirlə məhdudlaşmır. ABŞ-da orta təbəqə dedikdə həm də müəyyən həyat keyfiyyətlərinə və imkanlarına sahib olan qruplar nəzərdə tutulur: şəxsi mənzil və avtomobil sahibliyi, keyfiyyətli səhiyyə və təhsil xidmətlərinə çıxış, övladların ali məktəbdə oxuması və ildə azı bir dəfə ailəvi istirahət imkanı. 1971-ci ildə orta təbəqə əhalinin 61%-ni təşkil edirdisə, 2023-cü ildə bu göstərici 51%-ə düşmüşdür. Bunun əsas səbəbləri kimi gəlir uçurumunun yüksəlməsi, təhsil və səhiyyə xərclərinin kəskin artması, daşınmaz əmlak bazarında qiymətlərin sürətli bahalaşması göstərilir. ABŞ-da "orta təbəqənin daralması" problemi sosial sabitlik və gələcək iqtisadi inkişafla bağlı ciddi narahatlıqlara səbəb ola bilər və bu dövlət bu istiqamətdə inkişaf imkanlarına yenidən nəzər yetirməlidir [30] (Pew Research Center, 2024).

**Skandinaviya ölkələri**

Avropada orta təbəqənin formalaşması və qorunub saxlanılması daha çox sosial dövlət institutları ilə bağlıdır. Xüsusən də Skandinaviya ölkələrində orta təbəqə anlayışı daha da kəskindir: İsveç, Norveç və Danimarkada əhalinin böyük hissəsi özünü orta təbəqəyə aid edir. Bunun əsas səbəbi yüksək vergi dərəcələrinin hesabına maliyyələşən universal sosial xidmət sahələridir. Bu modeldə demək olar ki, bütün əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətlərinə, sosial təminata və sabit gəlir mənbələrinə çıxış imkanları vardır. *"Demək olar ki, bütün ölkələrdə respondentlərin çoxu özlərini orta sinif kateqoriyasına daxil etsələr də, əhəmiyyətli bir hissə başqa siniflərdə özünü görür. Adətən əhalinin 20–30%-i özünü işçi təbəqəsinə aid edir (Böyük Britaniya istisna olmaqla; burada işçi təbəqə 40%-lə ən böyük qrupdur). Aşağı-orta sinfin payı ölkələr arasında dəyişir: Danimarkada 10%-dən bir qədər çox, İtaliyada isə 30%-dən artıqdır. Yuxarı-orta sinif isə daha kiçikdir: Böyük Britaniyada 3%-dən Danimarkada 20%-ə qədər. Respondentlərin 1%-dən azı özünü yuxarı sinfə aid etdiyini bildirib və buna görə bu kateqoriya təhlildən kənarda saxlanılıb"* [31] (Kevins, Horn, Jensen & van Kersbergen, 2019, s. 26). Sadəcə, burada bir məqam vardır ki, Marksist yanaşmadan fərqli olaraq (Marksist yanaşmada işçi təbəqə orta təbəqə hesab olunmur), göstərilən istinadda işçi sinif orta təbəqə kimi anlaşılmaqdadır, çünki bu şəxslərin sabit iş yerləri, stabil gəlirləri və istehlak imkanları vardır.

**Çin**

Son otuz ildə Çin cəmiyyətində orta təbəqənin sürətli genişlənməsi müşahidə olunmaqdadır. 2000-ci ildə əhalinin cəmi 3.1 faizi (təxminən 39 milyon nəfər) orta təbəqəyə daxil olduğu halda, 2018-ci ildə bu göstərici 707 milyona (əhalinin 50.8 faizi) gəlib çıxmışdır. Nəticədə, bir nəsil ərzində yüz milyonlarla insanın sosial-iqtisadi statusunda yüksəliş qeydə alınmışdır. Orta təbəqənin böyüməsi yalnız gəlirlərin artımı ilə deyil, həm də həyat tərzində ciddi dəyişikliklərlə müşayiət olunur: mənzil və avtomobil sahibliyi, daxili və xarici turizmə marağın artımı, təhsilə və texnologiyaya çıxışın əlçatanlığı bu sinfi səciyyələndirən əsas parametrlərdir. Məsələn, 2017-ci ildə Çində 24.7 milyon sərnişin avtomobili satılmış və dünya üzrə avtomobil satışlarının üçdə birini təşkil etmişdir. Eyni zamanda, ali təhsilə qəbul göstəriciləri 2000-ci ildəki 7.6 faizdən 2018-ci ildə 53.8 faizə qədər yüksəlmiş, xaricdə təhsil alan tələbələrin sayı isə yüz minlərlə nəfəri ötüb keçmişdir. İnternet istifadəsinin 2000-ci ildə 1.8 faizdən 2017-ci ildə 54.3 faizədək artması və Çinin 2020-ci ildə 2.1 trilyon dollarlıq elektron ticarət bazarına sahib olması orta təbəqənin istehlak davranışlarında keyfiyyətcə yeni mərhələnin formalaşmasına işarədir. Bu göstəricilər sübut edir ki, Çində orta təbəqə artıq yalnız daxili bazarın güclənməsində deyil, həm də qlobal istehlak və investisiya axınlarının istiqamətlənməsində həlledici rola sahibdir [32] (ChinaPower, 2020).

[30] Pew Research Center (2024). The State of the American Middle Class https://www.pewresearch.org/race-and-ethnicity/2024/05/31/the-state-of-the-american-middle-class/

[31] Kevins, A., Horn, A., Jensen, C., & van Kersbergen, K. (2019). The illusion of class in welfare state politics? Journal of Social Policy, səh. 26. https://doi.org/10.1017/S0047279418000247

[32] ChinaPower. (2020). *Is China's middle class the largest in the world?* Center for Strategic and International Studies (CSIS). https://chinapower.csis.org/china-middle-class/

**Azərbaycanda orta təbəqənin formalaşması və mövcud vəziyyəti.**

Ölkələrin timsalında orta təbəqənin mövqeyini təyin edərkən anlaşılır ki, təhsil və insan kapitalı orta təbəqənin davamlı formalaşmasında və sabitliyində önəmli məqamdır. Azərbaycanda bu sahədə bir sıra müsbət göstəricilər var, amma eyni zamanda inkişaf üçün nöqtələrimiz də mövcuddur. Dövlətin təhsil sahəsinə xərcləri artmaqdadır. Məsələn, 2024-cü ildə təhsil üçün dövlət büdcəsindən ayrılan vəsait təxminən **4.4 milyard manat** olmuşdur ki, bu da 2023-cü ilə nisbətən 6.4 % artım deməkdir. Bu vəsait təhsilin inkişafına, məktəb infrastrukturu, müəllim hazırlığı və digər xidmətlərin keyfiyyətinin artırılmasına yönəldilir [33] (Trend.az, 2025). Bundan başqa, dövlətin təhsilə ayırdığı büdcə xərcinin ümumi ÜDM-ə nisbəti son illərdə də bərabər şəkildə artırılmaqdadır. *"2023-cü ildə son göstərici 3,58 faiz olmuşdur ki, bu da 2022-ci ildəki 3,05 faizli göstəriciylə müqayisədə artım deməkdir. Müqayisə üçün qeyd edək ki, 63 ölkənin məlumatlarına əsasən dünya üzrə orta göstərici 4,40 faiz təşkil edir. Tarixi dinamika göstərir ki, 1992–2023-cü illər arasında Azərbaycan üzrə orta göstərici 3,19 faiz olmuşdur"* [34] (TheGlobalEconomy.com, 2023).

Təhsilə yatırımlar orta təbəqə üçün bir növ investisiya rolunu oynayır. Təhsil səviyyəsinin yüksəlməsi yalnız fərdi imkanları artırmır, eyni zamanda iş bazarında daha rəqabətli mövqe tutmaq üçün çox vacib amildir. Orta təbəqə sinfinə aid uşaqların ali təhsil alma imkanları genişləndikcə, irəlidə onların sosial mobilliyi və gəlir səviyyələri daha sabit olur. Digər tərəfdən, iş bazarı və sahibkarlıq imkanlarının artması insan kapitalının reallaşdırılması üçün əsas şərtlərdəndir. Azərbaycanda Mikro, Kiçik və Orta Sahibkarlıq Subyektlərinin payı iqtisadiyyatda önəm qazanır. *"Azərbaycanda sahibkarların 99 faizindən çoxu mikro, kiçik və orta sahibkarlıq subyektləridir. Onların təxminən 97,3 faizi mikro, 1,9 faizi kiçik, 0,8 faizi isə orta sahibkarlıqlardır. Bu müəssisələr ticarət, kənd təsərrüfatı, tikinti, logistika, turizm və digər sahələrdə fəaliyyət göstərirlər. Son illərdə bu müəssisələrin dövriyyəsi və gəlirləri əhəmiyyətli dərəcədə artmış və ölkənin iqtisadi inkişafına ciddi töhfə vermişdir"* [35] (EU4Business, 2024).

Azərbaycanda orta təbəqənin sabitliyi və genişlənməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyalarında əsas yer tutur. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin imzaladığı sərəncamlar və qəbul edilən dövlət proqramları bu prosesdə mühüm paya sahibdir. Dövlət siyasətinin əsas məqsədi yalnız yoxsulluğun azaldılması deyil, eyni zamanda orta gəlir qruplarının gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması və iqtisadi imkanlarının artırılması olmuşdur.

2021-ci ildə qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi bu baxımdan strateji dönüş nöqtələrindən biri hesab olunur. Burada aydın şəkildə vurğulanır ki, *"Davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalmalıdır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır"* [36] (Azərbaycan Respublikası Prezidenti, 2021).

Təhsil sahəsində qəbul edilən dövlət proqramları isə xüsusilə gənclərin sayəsində gələcək nəsillərin yaşayış rifahının yüksəldilməsinə yönəlmişdir. 2019–2023-cü illəri əhatə edən "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" ali məktəblərin tədris keyfiyyətini gücləndirmək, universitetləri beynəlxalq reytinqlərdə daha yuxarı

---

[33] Trend.az. (2025, May 16). Azərbaycanın təhsil büdcəsi artıb: vəsaitlər əsasən məktəblərin infrastrukturu və müəllim hazırlığına sərf olunur. https://www.trend.az/business/4049232.html

[34] TheGlobalEconomy.com. (2023). Azerbaijan — Education spending (% of GDP). https://www.theglobaleconomy.com/Azerbaijan/Education_spending/

[35] EU4Business. (2024). Azerbaijan — Results in 2024: SMEs supported, budget and outcomes. https://eu4business.eu/countries/azerbaijan/

[36] Azərbaycan Respublikası Prezidenti. (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər haqqında sərəncam. https://president.az/az/articles/view/50474

pillələrə qaldırmaq və tələbələrin qlobal bilik mübadiləsində iştirakını təmin etmək məqsədi daşımışdır. [37] (Azərbaycan Respublikası Prezidenti, 2018). Nəticədə, həm universitetlərin potensialı artmış, həm də orta təbəqəyə mənsub ailələrin övladlarının daha yüksək keyfiyyətli təhsilə çıxışı imkanı qazanmışdırlar.

2022–2028-ci illəri əhatə edən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" da əhəmiyyətli addımlardan biri hesab olunur. Bu proqram vasitəsilə ölkənin müxtəlif sosial təbəqələrinə aid istedadlı gənclərin xaricdə keyfiyyətli təhsil almasına şərait yaradılır. *"Qəbul üzrə kvota sayı 500 nəfər müəyyən olunub. 2025-ci ildən başlayaraq kvotanın 25 faizindən çox olmayan hissəsi bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi doktorantura səviyyəsini əhatə edəcək. 2024-2025-ci tədris ilində Dövlət Proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə 125, magistratura səviyyəsi üzrə isə 375 nəfər olmaqla ümumilikdə 500 nəfər təqaüdçü adını qazanıb"* [38] (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2022). Burada məqsəd yalnız fərdi nailiyyətlər deyil, həm də ölkəyə yeni bilik və bacarıqların, texnologiyaların və idarəetmə təcrübələrinin gətirilməsi olmuşdur. Əslində, bu təşəbbüs orta təbəqənin intellektual potensialının artırılması, onun iqtisadi və sosial sabitliyinin daha güclü əsaslara söykənməsi anlamına gəlir.

**Sosial siyasət və rifah proqramlarının təsiri.**

Orta təbəqənin möhkəmlənməsi yalnız iqtisadi artımla deyil, həm də dövlətin həyata keçirdiyi məşğulluq və sosial rifah siyasətləri ilə bilavasitə sıx əlaqədədir. Azərbaycanda son illərdə bu istiqamətdə aparılan islahatlar orta təbəqənin sosial-iqtisadi dayanıqlığını artırmaq üçün mühüm vasitə kimi çıxış etmişdir. Xüsusən də məşğulluq imkanlarının genişləndirilməsi, minimum əməkhaqqının mərhələli şəkildə artımı, pensiya və müavinətlərin indeksləşdirilməsi orta gəlir qruplarının alıcılıq qabiliyyətinin qorunmasında əsas rol payıdır. Məsələn, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli sərəncamı ilə minimum aylıq əməkhaqqı 2025-ci il yanvarın 1-dən 400 manat səviyyəsində təyin edilmişdir. Bu qərar yalnız aşağı gəlir qruplarının deyil, həm də orta təbəqəyə yaxınlaşmaq potensialı olan ailələrin gəlir dayanıqlığını inkişaf etdirir. Eyni zamanda, yaşayış minimumunun əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün isə 246 manat olaraq təsdiqlənməsi dövlətin sosial rifah siyasətində məqsədyönlü addımlardan hesab edə bilərik. [39] (Azərbaycan Respublikası Prezidenti, 2024).

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-iyun aylarında ölkədə orta aylıq nominal əməkhaqqı 1097,3 manat təşkil etmiş, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9,4% artım anlamına gəlir [40] (Dövlət Statistika Komitəsi, 2025). Lakin bu artımın real təsirini anlamaq üçün inflyasiya amili nəzərə alınmalıdır. Mərkəzi Bankın 2025-ci ilin mart ayında təqdim etdiyi məlumata əsasən, illik inflyasiya 5,4% həddinə çatmışdır [41] (Azərbaycan Respublikasının Mərkəzi Bankı, 2025). Bu isə o deməkdir ki, nominal əməkhaqqı artsa da, real əməkhaqqı göstəriciləri daha mülayim templə artmışdır. Orta təbəqənin sabitliyini qorumaq üçün gələcəkdə gəlir artımı ilə inflyasiya arasında balansın saxlanması vacib amildir.

Sosial rifah proqramlarının genişləndirilməsi də orta təbəqənin möhkəmlənməsinə xidmət edir. 2024-cü ilin əvvəlinə olan statistik məlumatlara əsasən, 63968 aztəminatlı ailə ünvanlı dövlət sosial yardımı almışdır. Paralel olaraq, sosial müavinət alanların sayı 443016 nəfərə çatmışdır ki, bu da əvvəlki illərlə müqayisədə yüksəliş deməkdir Pensiya sistemində aparılan dəyişikliklər də əhalinin rifahına təsir göstərən amillərdəndir. 2024-cü ildə ölkə üzrə orta aylıq pensiya məbləği 441,3 manat

---

[37] Azərbaycan Respublikası Prezidenti. (2018). Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı (2019–2023-cü illər). https://president.az/az/articles/view/30751

[38] Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2022). Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı (2022–2028-ci illər). https://edu.gov.az/az/2022-2026-ci-iller-uzre-dovlet-proqrami/2022-2026-ci-iller-uzre-dovlet-proqrami2483

[39] Azərbaycan Respublikası Prezidenti. (2024). Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Qanun. https://president.az/az/articles/view/67726

[40] Dövlət Statistika Komitəsi. (2025). İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə. https://www.stat.gov.az/news/index.php?lang=az&id=6362

[41] Azərbaycan Respublikasının Mərkəzi Bankı. (2025). Faiz dəhlizinin parametrləri haqqında. https://www.cbar.az/press-release-5033/faiz-dhlizinin-parametrlri-haqqinda

olmuş, bu da əvvəlki ilə nisbətdə 18,6% artım deməkdir [42] (Dövlət Statistika Komitəsi, 2024). Hərçənd bu göstəricilər əsasən həssas qrupları əhatə etsə də, ümumi sosial sabitlik fonunda orta təbəqə üçün də dolayısı ilə mühüm müdafiə mexanizmlərini dəstəkləyir. Müavinət və təqaüdlərdə müşahidə olunan bu inkişaf, orta təbəqənin gələcək sosial təminat mexanizmlərinə inamını artırır. Bütün bu tədbirlər sübut edir ki, məşğulluq siyasəti, sosial rifah proqramları və dövlətin iqtisadi dəstək mexanizmləri orta təbəqənin formalaşması və möhkəmlənməsi üçün vacib şərtlərdir. Lakin real gəlirlərin qorunması, inflyasiyanın nəzarətdə saxlanması və gəlir bölgüsündə ədalətin təmin olunması irəlidə daha sabit və dayanıqlı orta təbəqənin yaranmasının əsas istiqamətlərini təşkil edir.

## Nəticə

Orta təbəqə müasir cəmiyyətlərin sosial-iqtisadi sabitliyinin əsas sütunlarından biridir və iqtisadi artımın dayanıqlılığında vacib rol oynayır. Beynəlxalq təcrübə göstərir ki, güclü orta təbəqəyə malik olan ölkələrdə sosial gərginlik azalır, vətəndaş iştirakçılığı və demokratik dəyərlər isə daha da güclənir. ABŞ-da orta təbəqənin kiçilməsi, Skandinaviya modelində onun sosial dövlət institutları hesabına dəstəklənməsi və Çində sürətli genişlənməsi bu qrupun müxtəlif ölkələrdə fərqli transformasiya proseslərindən keçməsinə bariz nümunələrdir.

Azərbaycan nümunəsi göstərir ki, orta təbəqənin formalaşması təkcə iqtisadi artım amillərinə deyil, həm də dövlətin sosial siyasətinə və rifah proqramları ilə tam əlaqəlidir. Neft gəlirlərindən əldə olunan resurslar, iri infrastruktur layihələri, sosial müdafiə və məşğulluq sahəsində aparılan islahatlar orta sinfin möhkəmlənməsinə mühüm təsir göstərməkdədir. Təhsil və sahibkarlıq imkanlarının artırılması, minimum əməkhaqqının və pensiyaların mərhələli şəkildə yüksəldilməsi, sosial yardım və müavinətlərin əhatə dairəsinin genişləndirilməsi bu təbəqənin iqtisadi təhlükəsizliyini gücləndirən əsas məqamlardandır.

Bununla belə, inflyasiya, gəlir bölgüsündə qeyri-bərabərlik kimi problemlər orta təbəqənin davamlı inkişafı üçün daima risk olaraq qalmaqdadır. Məhz bu səbəbdən gələcəkdə dövlət siyasətləri yalnız nominal göstəricilərin artımına deyil, real gəlirlərin qorunmasına, sosial ədalətin təmin olunmasına və orta təbəqənin genişlənməsinə fokuslanmalıdır. Yalnız bu halda orta təbəqə həm iqtisadi artımın aparıcı qüvvəsi, həm də sosial sabitliyin təminatçısı kimi öz funksiyalarını davam etdirə biləcəkdir.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. OECD (2019). Under Pressure: The Squeezed Middle Class. səh 13 https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2019/05/under-pressure-the-squeezed-middle-class_f3fa7167/689afed1-en.pdf
2. World Bank (2025). Country and Lending Groups https://datahelpdesk.worldbank.org/knowledgebase/articles/906519-world-bank-country-and-lending-groups
3. https://data.worldbank.org/indicator/NY.GNP.PCAP.CD?locations=AZ
4. Appazov, A. A., & Adambekova, A. A. (2025). Socio-Economic Aspects of Middle Class Identification: Criteria and Challenges. L.N. Gumilyov Eurasian National University Bulletin. Economics Series, 2, səh 115. https://bulecon.enu.kz/index.php/main/article/view/1215
5. Pew Research Center (2024). The State of the American Middle Class https://www.pewresearch.org/race-and-ethnicity/2024/05/31/the-state-of-the-american-middle-class/
6. Kevins, A., Horn, A., Jensen, C., & van Kersbergen, K. (2019). The illusion of class in welfare state politics? Journal of Social Policy, səh. 26. https://doi.org/10.1017/S0047279418000247


[42] Dövlət Statistika Komitəsi. (2024). Səhiyyə, sosial müdafiə və idmanın əsas göstəriciləri. Stat.gov.az. https://www.stat.gov.az/source/healthcare/

7. ChinaPower. (2020). *Is China's middle class the largest in the world?* Center for Strategic and International Studies (CSIS). https://chinapower.csis.org/china-middle-class/
8. Trend.az. (2025, May 16). Azərbaycanın təhsil büdcəsi artıb: vəsaitlər əsasən məktəblərin infrastrukturu və müəllim hazırlığına sərf olunur. https://www.trend.az/business/4049232.html
9. TheGlobalEconomy.com. (2023). Azerbaijan — Education spending (% of GDP). https://www.theglobaleconomy.com/Azerbaijan/Education_spending/
10. EU4Business. (2024). Azerbaijan — Results in 2024: SMEs supported, budget and outcomes. https://eu4business.eu/countries/azerbaijan/
11. Azərbaycan Respublikası Prezidenti. (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər haqqında sərəncam. https://president.az/az/articles/view/50474
12. Azərbaycan Respublikası Prezidenti. (2018). Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı (2019–2023-cü illər). https://president.az/az/articles/view/30751
13. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2022). Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı (2022–2028-ci illər). https://edu.gov.az/az/2022-2026-ci-iller-uzre-dovlet-proqrami/2022-2026-ci-iller-uzre-dovlet-proqrami2483
14. Azərbaycan Respublikası Prezidenti. (2024). Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Qanun. https://president.az/az/articles/view/67726
15. Dövlət Statistika Komitəsi. (2025). İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə. https://stat.gov.az/news/index.php?id=6220&lang=az
16. Azərbaycan Respublikasının Mərkəzi Bankı. (2025). Faiz dəhlizinin parametrləri haqqında. https://www.cbar.az/press-release-5033/faiz-dhlizinin-parametrlri-haqqinda
17. Dövlət Statistika Komitəsi. (2024). Səhiyyə, sosial müdafiə və idmanın əsas göstəriciləri. Stat.gov.az. https://www.stat.gov.az/source/healthcare/

## Положение среднего класса в экономике Азербайджана и направления его укрепления

**Джейхун Мамедли**
Министерство науки и образования Азербайджанской Республики
Институт экономики, докторант
Электронная почта: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Резюме:** В статье рассматривается роль среднего класса в социально-экономическом развитии, международные подходы и опыт Азербайджана. Подчеркивается важность распределения доходов, потребительских возможностей, образования и социальной мобильности в формировании среднего класса. Сравниваются преимущества различных моделей на примере США, скандинавских стран и Китая, а также анализируется положение Азербайджана среди стран с уровнем дохода выше среднего благодаря экономическому росту, доходам от нефти и государственным инвестициям. В статье также оцениваются политика социального обеспечения, повышение минимальной заработной платы и пенсий, а также расширение программ адресной социальной помощи как ключевые факторы укрепления среднего класса. Следовательно, защита и развитие среднего класса имеют стратегическое значение для устойчивого социально-экономического развития Азербайджана.

**Ключевые слова:** Средний класс, социальное обеспечение, распределение доходов, экономическое развитие

**UDC 316.334.2, 330.34, 364.2**
**JEL I31, O15, P36**